

XALİQ AZADİ

## SONSUZ QARA GECƏLƏR

Sənli şirin xatirə
Eşqə pənahımdımı?
Göylərin gurultusu
Sinəmdə ahımdımı?

Sonsuz qara gecələr,
Həsrət didir qəlbimi.
Zülmətin sükutuna
Söyləyirəm dərdimi!
Bilməm mənə zülm edən -
Tənha gecələrimmi?
Ya ki, sənsiz açılan,
Qəmli sabahımdımı?

Görməməkçün hicranı,
Bağlayıram gözümü.
Sənli Keçmişə tərəf
Çevirirəm üzümü.
Şirin xəyal bu qəmli
Həyatımın özümü,
Ya bəxtimin sahibi,
Üstümdə şahımdımı?

Həyatımın kitabı -
Vaxtsız ağaran başım.
Üfüqlərə dikələn
Baxışlardı sirdaşım!
Vüsalıma yas tutan,
Seltək axan göz yaşım,
İtirdiyim sevincə,
Yoxsa izahımdımı?

İki yaralı ürək,
"Ah"lara oldu meydan!
Yetə əbədi sükut,
Ya ki, qurtara hicran!
Xaliq deyir qocaldım,
Azalmadı ah-fəqan.
Bu sevdanın fəryadı,
Mənim günahımdımı?

## İNSAF EYLƏ

İcazə ver mən yazığa,
Sənə aşiq olum, gözəl.
Yetim arzu niyyətimə,
Peymanına dolum, gözəl.

Məcnununam, səni sevən,
Ürəyim döyünür sənnən!
Rəva bilmə dərd əlinnən,
Qismət olsun ölüm, gözəl!

Yaşa baxmır sevən insan,
Eşq odunda olur yanan.
Yaş çox olar, ürək cavan,
Sev, sevinim, gülüm, gözəl!

Ömür keçir, çoxalır yaş,
Üz qırışır, ağarır baş!
Həyat məni salır çaş-baş,
Qoy, kamını alım, gözəl!

Demə: nə sevgidir onda!
Mənə təksən bu cahanda.
Qıyma hicranın odunda,
Dərd əlinnən solum, gözəl!

Xaliq dəli olub, inan,
Et əlacı, Hüri-Qılman.
İxtiyar ver, sənə qurban,
İlqarında qalım gözəl!

## QAYTAR MƏNƏ SEVİNCİ

*(1994-cü il)*

Qaytar mənə sevinci,
Yenə əl-ələ verək!
Bağrıma sıxım səni,
Birgə döyünsün ürək.

Qaytar mənə sevinci,
Könlümü didir hicran!
İtirmişəm özümü,
Dünya gözümdə viran!

Qaytar mənə sevinci,
Qoy, göz yaşım dayansın!
Addımlayaq yanaşı -
Yatan bəxtim oyansın!

Qaytar mənə sevinci,
Sənsiz qəmdir bu həyat.
Gözlərimdə axan yaş,
Dilimdə odlu fəryad!

Qaytar mənə sevinci,
Həsrətın odundayam.
Sənlə vüsala gedən -
Arzu qanadındayam.

Qaytar mənə sevinci,
Xatirələr oyansın.
Vüsala səsləyən yol,
Qarşımızda dayansın!

Qaytar mənə sevinci
Bir busə eylə qismət.
Nəfəsinlə isindir,
Ürəkdən getsin möhnət

Qaytar mənə sevinci!
Qaytar məni özümə!
Qaytar sənli dünyamı -
İşıq gəlsin gözümə!

## SADƏLİK

Təmiz düşüncədir, açıq ürəkdir,
Məlhəmdi, loğmandı cana sadəlik!
Üzdə təbəssümdür, gözlərdə gülüş,
Həm çiçək, həm bəzək - həna sadəlik!

Ürəkdə xoş arzu, dilində salam,
Kiçiyə-böyüyə edir ehtiram!
Əyrini əyritək, düzü-düz qanan,
Çıxmayır məntiqdən yana sadəlik!

Çətin könüllərin qapısın açar,
Yaxşıya sevinər, sevincdən uçar!
Gözü kölgəsizdi - heç olmaz naçar,
Məşəldi ömürə - ana, sadəlik!

Xaliqəm, zəmanə sıxsa da, belə -
Xoş deyil boş vədi gətirmək dilə!
Şahla - şah olanı, fəhləynən - fəhlə,
Çatdırır şöhrətə, şana sadəlik!

## GÜLÜM

*(1994-cü il)*

Bu vüsal həsrətli lal baxışların,
Od olub sinəmə keçibdi, gülüm!
Yoxluğun "ah"ımı ərşə dirəyib,
Sevinc gözlərimdən köçübdü, gülüm!

Arzular od tutub, əriyib dilək,
Necə tab gətirsin bu dərdə ürək!
Köksümə dağ çəkən insafsız fələk,
Mənə qəm libasın biçibdi, gülüm!

Eşqimə xəyanət deyil gərəyim,
Sədaqət-amalım, ömür dirəyim.
Nisgilli sevdamla vuran ürəyim,
Çoxdan öz yolunu seçibdi, gülüm!

...Dilim söz də tutmur dərdli halımda,
Sanki, bəhsə girib fələk zalım da!
Sənli xatirələr zülmət yolumda,
Dönübdü çırağa, saçıbdı, gülüm!

Xaliqəm, min sual odlu qəlbimdə,
Nə fərqi: səbəbi səndə, ya, məndə?
Bir yorğun ovçuyam, azmışam çəndə,
İtibdi şikarım, qaçıbdı, gülüm!

# OLARMI?

Kölgədə gizlənən tər bənövşəni,
Diz üstə çökübən üzsəm olarmı?
Həyat sınağında alışıb yanan
Köksümün üstünə düzsəm, olarmı?

Əyilib nərgizi qoparıb hərdən,
Gözəl təravəti udsam dərindən,
Titrəyən yarpaqda səhər şehindən,
İçməyə bir damla süzsəm olarmı?

Bulaqlar çağlasın, desin nəğməni,
Şən gülüş götürsün çölü, çəməni!
Bir qaragöz pəri səsləsin məni,
Yox olsun kədərim, qüssəm, olarmı?

Bir anlıq qayıdım o keçən çağa,
Sevdiyim üz tutsun yenə bulağa.
Naz edib qaçanda məndən uzağa,
İnciyib, bir az da küssəm, olarmı?

Xaliqin qəlbində olan xatirə,
Şirin səlnamədi neçə ömürə!
Yağ-pendir doldurub isti fətirə,
İştahla diş vurub kəssəm, olarmı

# GÖZLƏRİN

Od olub baxışın, düşüb canıma,
Vurub ürəyimə yara gözlərin.
Eşqin atəşinnən olmuşam dəli,
Salıb kəməndinə qara gözlərin.

And içib, ilqarı etsək də əzəl,
Ortaya sən saldın hicranı, gözəl.
Yetər naz etdiyin, bir insafa gəl,
Çəkməsin ömrümü dara, gözlərin.

De, necə unudum sənlə keçəni!
Könlümün sultanı bilmişəm səni.
Ovunu itirmiş ovçuyam, məni
Salıbdı borana, qara gözlərin.

Vüsal arzusuyla yanıram özüm,
Daha gözləməyə qalmayıb dözüm.
İzin ver, toxunsın üzünə üzüm,
Eyləsin dərdimə çara gözlərin.

Xaliqəm, bu sevgim gəlibdi Haqdan,
Güc alır sinəmdə coşan bulaqdan.
Alıb ixtiyarım əlimnən çoxdan,
Gedərəm, aparsa hara gözlərin.

# PAYIZ GƏLİR

Yay gedir! Gələcək payız yenə də,
Yarpaqlar saralıb düşəcək yerə!
Təbiət insana edəcək hədə,
Payıza baxacaq hərə bir cürə!

Kimsə sevinəcək Xəzan yelinə,
Kimsə ağlayacaq, kimsə güləcək!
Kimsə yaş tökəcək solan gülünə,
Kimsə tənhalıqla dərdi böləcək!

Kimsə bu payızda ilk addım atıb,
"Salam" söyləyəcək günəşə, aya!
Kiminsə karvanı mənzilə çatıb,
"Əlvida" deyəcək fani dünyaya!

Payız qurtarmamış yetişəcək qış,
Neçə baş tutmayan niyyət qalacaq!
Böyük yaradana söyləyək alqış,
Bir yan gül açacaq, bir yan solacaq!

Uzun qış gecəsi deyəcəm, şükür,
Deyəsən, bu il də, bax, belə bitdi!
Bəlkə də ağlıma gəlmədi fikir:
Axı, mən itirdim, ömrümdən getdi!

# VAXTI VAR

Özgənin qəminə gülürsən nahaq,
Hər yersiz gülənin ağlar vaxtı var!
Müşküldü bu gündən sabahı görmək,
Fələyin yolları bağlar vaxtı var!

Niyyətin əngəllər açar başına,
Yetirər səbəbi o göz yaşına.
Məsəl var: nə töksən özgə aşına,
Özcə qaşığına çıxar, vaxtı var!

Xaliqin sözünü yaz bir dəftərə,
Eylə mütaliə gündə on kərə!
Özgə sevinərsə batma kədərə,
Yazan yuxarıdan baxar, vaxtı var!